*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 13-19* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.13*

# İsa Həbibbəyli və Naxçıvan teatrı

**Akif İmanlı**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: akifimanli48@gmail.com

**Annotasiya.** Məqalədə akademik İsa Həbibbəylinin istər tələbəlik, istərsə də Naxçıvanda işlədiyi illərdə Naxçıvan teatrı ilə əlaqələrindən bəhs edilir. İsa Həbibbəylinin teatra olan böyük marağı orta məktəb illərində başlayıb. O, 1965-1966-cı illərdə Şərur rayonundakı Oğlanqala məktəbində oxuyarkən məktəbin dram dərnəyinin hazırladığı və uğurla səhnələşdirdiyi S.Vurğunun "Vaqif" dramında Vidadi rolunu oynamışdır. İsa Həbibbəyli öz kəndində dram dərnəyi yaradıb, məktəbliləri bu dərnəyə cəlb edib, "Vaqif"i tamaşaya qoyub və bu dəfə də Vaqif obrazını özü ifa edib. Sonra Ü.Hacıbəylinin "O olmasın, bu olsun/ya Məşədi İbad", "Arşın mal alan/Paltarçı" əsərlərini tamaşaya qoyub, Sərvər, Həsən bəy, Süleyman bəy rollarını ifa edib. İsa Həbibbəyli "Gülümov" adlı komediya yazmış, bu komediyada Gülümov, Aydın Həsənov və Zülümov rollarını ifa etmişdir; Heydər əmi rolunu Nail Abbasov ifa edib. Əsər kənd klubunda səhnələşdirilib. İsa Həbibbəylinin teatra marağı tələbəlik illərində və Naxçıvanda işlədiyi illərdə də davam etmiş, teatrla daimi əlaqə saxlamışdır. Onu tez-tez tamaşaların ictimai müzakirələrinə dəvət edirdilər.
Teatra sonsuz həvəsi onu 1996-2013-cü illərdə Naxçıvan Dövlət Universitetinin rektoru olduğu dövrdə Tələbə Teatr Studiyasını yaratmağa vadar edib. Tələbə teatrı tezliklə müstəqil və peşəkar bir teatr səviyyəsinə yüksəldi, Türkiyənin Bakı, Qars və Ərzurum universitetlərində, İğdır şəhərində tamaşalarla çıxış etdi. İsa Həbibbəyli NDU-da "Şən və hazırcavablar" klubunun da yaradıcısıdır.
**Açar sözlər:** İsa Həbibbəyli, Naxçıvan, Bakı, Vaqif, Hacıbəyli, Gülümov, Aydın, Nail, teatr, studiya

**Məqalə tarixçəsi:** göndərilib – 12.02.2025; qəbul edilib – 20.02.2025

# Isa Habibbeyli and the Nakhchivan Theater

**Akif Imanli**
Doctor of Philological Sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: akifimanli48@gmail.com

**Abstract.** The article discusses the connections of academician Isa Habibbeyli with the Nakhchivan theater both during his student years and during his years working in Nakhchivan. Isa Habibbeyli's great interest in theater began during his high school years. While studying at the Oghlangala school in the Sharur region, in 1965-1966, he played the role of Vidadi in S.Vurgun's drama "Vagif", which was prepared and successfully staged by the school's drama club. Isa Habibbeyli created a drama club in his village, attracted schoolchildren to this club, and staged "Vagif", and this time he

himself played the role of Vagif. Then he staged U.Hajibeyli's works "If Not That One, Then This One / or Mashadi Ibad", "Arshin mal alan/ The Cloth Peddler", and performed the roles of Sarvar, Hasan bey and Suleyman bey. Isa Habibbeyli wrote a comedy called "Gulumov"; in this comedy he performed the role of Gulumov, Aydin Hasanov and Zulumov; Nail Abbasov played the roles of Heydar uncle. The work was staged in the village club. Isa Habibbeyli's interest in theater continued during his student years and during his years working in Nakhchivan, and he maintained constant contact with the theater. He was often invited to public discussions of performances.
His endless passion for theater led him to create the Student Theater Studio in 1996-2013, when he was the rector of Nakhchivan State University. The student theater soon rose to the level of an independent and professional theater, and toured performances in Baku, Kars and Erzurum universities in Turkey, and in the city of Igdir. Isa Habibbayli also created the "Cheerful and Witty" club at NSU.
**Keywords:** Isa Habibbeyli, Nakhchivan, Baku, Vagif, Hajibeyli, Gulumov, Aydin, Nail, theater, studio

**Article history:** received – 12.02.2025; accepted − 20.02.2025

## Giriş / *Introduction*

Hələ I kursda təhsil alarkən müşahidə etmişdim ki, İsa Həbibbəylinin teatra böyük marağı var. O mənə demişdi ki, 1965-1966-cı illərdə Ulya-Noraşen (indiki Oğlanqala – A.İ.) məktəbində oxuduqları vaxt məktəbin Dram dərnəyinin üzvləri ilə birlikdə Səməd Vurğunun "Vaqif" dramında Vidadi rolunda oynamışdır. Tamaşa Oğlanqala və Mahmudkənd klublarında şagirdlər tərəfindən nümayiş etdirilmişdi. İsa Həbibov "Vaqif" dramında Vaqif rolunu oynamağı arzu edirmiş, lakin burada başqa kənddən gəlib Oğlanqalada oxuyan şagird Oqtay İsmayılov seçilmişdir. Bundan narazı qalan İsa Həbibbəyli öz kəndlərində – Danzik kəndində məktəb uşaqlarını başına yığıb Dram dərnəyi düzəltmiş və özünün rəhbərlik etdiyi həmin dərnək ilk olaraq öz kəndlərində "Vaqif" dramını tamaşaya qoymuşdur. Beləliklə, İsa Həbibov bu dəfə arzusuna çatmış və Vaqif rolunu ifa etmişdir.

## Əsas hissə / *Main part*

Danzik kənd klubunda Oğlanqala məktəbinin IX sinif şagirdi İsa Həbibovun yaratdığı dram dərnəyi Üzeyir Hacıbəylinin "Məşədi İbad" və "Arşın mal alan" əsərlərini tamaşaya qoymuşdur. İsa Həbibbəyli "Məşədi İbad"da Sərvər və Qaspoda Həsən bəy, "Arşın mal alan"da isə Süleyman bəy rollarını ifa etmişdir. Bu tamaşalarda qadın rollarını kəndin məktəbli oğlanları oynamışlar. Sonra dram dərnəyinin üzvləri qadın obrazları olmayan dram əsəri tapa bilmədikləri üçün İsa Həbibbəyli "Gülümov" adlı komediya yazmış və əsər uğurla Danzik kənd klubunda nümayiş olunmuşdur. Tamaşanın bədii rəhbəri və Gülümov rolunun ifaçısı da İsa Həbibov olmuşdur. Aydın Həsənov tamaşadakı Zülümov, Nail Abbasov isə Heydər əmi rolunda oynayıb. Tamaşa çox maraqla qarşılanıb. Xüsusən Nail Abbasovun yaratdığı təqaüdçü Heydər əmi obrazı böyük rəğbət qazanıb.

İsa Həbibov tələbəlik illərində bu tamaşa haqqında mənə mühüm bir hadisəni danışmışdı. Belə ki, iki pərdə və dörd şəkildən ibarət olan "Gülümov" tamaşası Danzik kəndinin klubunda 2 dəfə oynanılandan sonra rayon mərkəzindən atası Əkbər müəllimə xəbər göndərilib ki, tamaşa dayandırılmalıdır. Əsərdə ictimai təminat sistemində, qocaların və müharibə iştirakçılarının təqaüdə çıxarılması sahəsindəki nöqsanlardan, əliəyrilikdən bəhs edilməsi Şərur rayonunun rəhbər dairələrində "antisovet" meyilli addım kimi qarşılanıb. Əkbər müəllimin tapşırığı ilə tamaşa bir daha

göstərilməyib. Lakin İsa Həbibbəyli 1965-ci ildə yazılmış “Gülümov” komediyasının əlyazmasını uzun illər ərzində saxlayıb, nəhayət, əlli ildən sonra 2016-cı ildə çapdan çıxmış “Yollar şeirdən başlanmışdı” adlı kitabında olduğu kimi çap etdirmişdir.

Tələbəlik illərində də İsa Həbibbəyli teatra xüsusi maraq göstərirdi. Naxçıvan filialında dram dərnəyi yox idi. İsa Həbibov Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrında göstərilən tamaşalara baxır, müzakirələrdə iştirak edirdi. İlk dəfə mən onunla birlikdə tələbə ikən Naxçıvan teatrında Əziz Nesinin “Toros canavarı” adlı tamaşasına baxmışam. Naxçıvan teatrındakı Cəlil Məmmədquluzadənin “Ölülər” tamaşasının səhnə həlli İsa Həbibovun çox xoşuna gəlmişdi. O, tamaşanın müzakirəsi zamanı çıxış edib, Şeyx Nəsrullah – ölülər mühitinin göstərilməsi üçün səhnədə böyük bir hörümcək torunun qurulmasını rejissorun tapıntısı kimi qeyd etmişdi. Bu, “Ölülər” tamaşasına quruluş vermiş, istedadlı gənc rejissor, Stanislavski adına Leninqrad Teatr Məktəbinin davamçısı olan Vəli Babayevin və tamaşanın rəssamı Yuran Məmmədovun çox xoşuna gəlmişdi. İsa Həbibov hələ tələbəlik illərindən Vəli Babayev və Yuran Məmmədovla dostluq edirdi.

Naxçıvan teatrında Xalq artisti İbrahim Həmzəyevin quruluşunda oynanılan “Şeyx Sənan” tamaşası da maraqla qarşılanmışdı. İsa Həbibbəyli tamaşanın müzakirəsi zamanı çıxış edib demişdi ki, Şeyx Sənan obrazını elə bil ki, Hüseyn Cavid həmin rolu oynayan Dev Mamed adlı aktyor üçün yazıb. Baş rejissor bu rolu Dev Mamed adlı artistə tapşırmaqla əsərə həyatilik, reallıq gətirib. Dev Mamedin – Xalq artisti Məmməd Quliyevin uca boyu, səsindəki gur notlar Şeyx Sənan obrazına çox uyğun gəlirdi.

Bizim tələbəlik dövrümüz Naxçıvan teatrının ən parlaq vaxtları idi. Teatrda çox məşhur aktyorlar: İbrahim Həmzəyev, Zəroş Həmzəyeva, Mirhəsən Mirişli, Zemfira Əliyeva-Əsədova, Əyyub Haqverdiyev və başqaları, Yasəmən Ramazanova kimi bir neçə gənc aktyor fəaliyyət göstərirdi. Naxçıvan teatrı Azərbaycan və dünya ədəbiyyatı klassikləri ilə yanaşı, yerli yazıçı və şairlərin də əsərlərini tamaşaya qoyurdu. Biz tələbə ikən Naxçıvan teatrında Nazim Hikmətin “Kor padişah”, Əziz Nesinin “Toros canavarı”, Cəlil Məmmədquluzadənin “Ölülər”, Cəfər Cabbarlının “Vəfalı Səriyyə”, yaxud “Göz yaşları içərisində gülüş” tamaşaları ilə bərabər, Naxçıvanda yaşayıb-yaradan Hüseyn İbrahimovun “İtirilən sağlıq” və Kəmalə Ağayevanın “Məhsəti” dramlarına da böyük həvəslə baxmışdıq.

İsa Həbibbəylini tez-tez tamaşaların ictimai müzakirələrinə dəvət edirdilər. O, bir az sonra o zaman İrəvan Dövlət Dram Teatrına rəhbərlik edən Hidayətin Naxçıvan teatrında tamaşaya qoyulan əsəri haqqında da cəsarətli bir çıxış etmişdi. Müzakirə zamanı sovet quruluşuna tənqidi münasibət ifadə etdiyi üçün tamaşanı səhnəyə buraxmamaq barədə çağırışlar səsləndiyi zaman İsa Həbibov çıxış edərək, əsərdə sovet hakimiyyətinin inkişafına mane olanların tənqid edildiyini bildirmişdi. Onun bu çıxışından sonra vəziyyət dəyişmişdi.

Başqa bir müzakirə də yadıma düşür. Hansı əsər olduğunu unutmuşam. Müzakirədə müəllimimiz İzzət Maqsudov da iştirak edirdi. İzzət müəllim tamaşa haqqında fikirlərini dedikdən sonra çıxış üçün ilk sözü İsa Həbibova verdi. O, əsərin səhnə təcəssümündən tutmuş, aktyor oyununa qədər əsl teatrşünas səriştəsi ilə elə çıxış etdi ki, hamı heyran qaldı. Hətta aktyorların birinə öz iradını da qeyd etdi. İzzət müəllim bir neçə tələbəyə də söz verdi. Mən də utana-utana tamaşa haqqında bir neçə kəlmə söz deyib, xitabət kürsüsündən düşdüm.

İndi düşünürəm ki, müəllimlərimiz teatr tamaşalarının və kitabların müzakirələri vasitəsilə bizim hərtərəfli inkişafımızın qayğısına qalırdılar. İsa Həbibov isə belə tədbirlərin həm əsas təşkilatçısı və həm də ən fəal iştirakçılarından biri olurdu.

Teatrla yaxından bağlı olduğu üçün İsa Həbibbəyli qocaman rejissor Baxşı Qələndərli ilə də dostlaşmışdı. O, İrəvan Dövlət Dram Teatrından Naxçıvana dəvət olunmuşdu. Baxşı müəllim də tələbə İsa Həbibovu öz tamaşalarına dəvət edirdi.

Teatrla əlaqədar maraqlı bir hadisə də baş vermişdi. Azərbaycan Dövlət Akademik Dram Teatrı 1970-ci ildə Naxçıvana qastrola gəlmişdi. İsa Həbibbəyli bilet alıb demək olar ki, bütün

tamaşalara baxmışdı. Bakıdan gəlmiş gənc aktyor Nurəddin Mehdixanlı ilə də o zaman tanış olmuşdu...

Adətən, teatrda birinci sırada rəsmi nümayəndələr, vəzifəli şəxslər əyləşirdilər. İsa Həbibbəyli isə həmişə amfiteatr adlanan pilləkənvari uca yerlərə bilet alırdı. Buradan səhnə çox aydın görünürdü. Bir gün Naxçıvan filialında partiya təşkilatının katibi Mahmud müəllim (Mahmud Mahmudov) İsa Həbibovu rektorluğa çağırıb, onun Naxçıvan teatrında qastrol tamaşaları zamanı birinci sırada əyləşməsinin yuxarı dairələrdə narazılıqla qarşılandığını bildirmiş, ona irad tutmuşdu. İsa Həbibbəyli biletini göstərib, amfiteatrda oturduğunu demişdi. Mahmud müəllim Vilayət Partiya Komitəsinə zəng vurub, İsa Həbibovun biletinin arxa sıralara aid olduğunu xəbər vermişdi. Aydın olmuşdu ki, bizimlə bir qrupda oxuyan Tağı Fərəcov (Tağı Fəna) bilet almağa pulu olmadığı üçün hansı yolla isə teatra daxil olmuş, kiminsə yerini tutmamaq üçün bilet satılmayan birinci cərgədə əyləşmişdi. Rəsmi adamlar tamaşa başlanana yaxın salona daxil olanda birinci sırada naməlum bir gəncin oturduğunu görüb və onu tanımaq istəyiblər. Tağı Fərəcov onlara ADPİ-nin Naxçıvan filialının tələbəsi İsa Həbibov olduğunu bildirmiş və aradan çıxmışdı. Teatrın rəhbərliyi bu barədə yuxarı dairələrə məlumat vermiş, oradan da institutun rəhbərliyinə zəng vurub, lazımi tədbir görülməsini diqqətə çatdırmışdılar.

Buna bənzər bir başqa əhvalatı da Tağı Fərəcov bu sətirlərin müəllifinə göndərdiyi məktubda yada salmışdır. Məktubda haqqında söhbət gedən həmin əhvalatı Tağı Fərəcovun yazdığı kimi köçürürəm: “İsa Həbibbəylinin qoltuğunda müntəzəm qəzet və jurnallar olardı. Bir gün bir dəstə qəzet və jurnalı qoltuğuma vurub, Naxçıvan Vilayət Partiya Komitəsinin qabağına gəlib, skamyaların birində oturdum. Qəzetlərdən birini açıb, gözümə gözlük taxıb, oxumağa başladım. Yanıma Vilayət Partiya Komitəsinin bir neçə işçisi gəldi. Mən onların yanında da ağızdolusu danışırdım. Mənim dövrəm yavaş-yavaş dolmağa başladı. Mən onlarla əsaslı və əsassız mübahisələr etməyə başladım. Özümü alim kimi təqdim edirdim. Dövrəmdəkilər Vilayət Partiya Komitəsinin şöbə müdirləri və digər işçiləri idi. Onlar da mənə müxtəlif suallar verir və nəyi isə aydınlaşdırmaq istəyirdilər. Orada mənə bir nəfər sual verdi. O şəxs Vilayət Partiya Komitəsi şöbə müdirinin müavini idi. O dedi: “Siz kimsiz axı, bu qədər danışır və mübahisələr edirsiniz?” [1, s.93]

Mən dedim: “Day mənim sizə sözüm yoxdur. Necə ola bilər ki, məni tanımayasınız. Mən Naxçıvan filialının Dil-ədəbiyyat fakültəsinin sinifkomu, bütün qəzet və jurnallarda məqalə, oçerk, felyeton dərc etdirən İsa Həbibovam” [1, s.93].

Verdiyim cavabdan dövrəmdəkilərin bəziləri ağızlarını büzdü, bəziləri isə başlarını buladı. Sabahısı mən filiala getdim, sinfə girəndə İsa Həbibov əlində bir kitab, fənn müəllimini gözləyirdi. O mənə tərs-tərs baxıb, bir-iki addım irəli gəldi. Əlindəki kitabı qaldırıb mənə tərəf tulladı. Sinifdəki tələbələr məəttəl qaldılar. Sinifkomdan nə üçün belə etdiyini soruşdular. İsa Həbibov yarızarafat, yarıciddi şəkildə dedi: “Dünən Tağı Fərəcov Vilayət Partiya Komitəsi işçilərinin yanında özünü İsa Həbibov kimi təqdim etmiş, məni rüsvay və biabır etmişdi. Sinifdəkilər yenə gülüşdülər. Bir neçə saatdan sonra İsa Həbibov sakitləşdi və mənimlə əvvəlki kimi xoş rəftar etməyə başladı” [1, s.94].

Başqa bir əhvalatı da yada salmaq istəyirəm. Görkəmli elm xadimi, professor Abbas Zamanov Naxçıvana gəlib, qısa bir müddət burada tələbələrə mühazirələr oxudu. Tələbələr Abbas müəllimlə birlikdə Naxçıvan teatrında Mirzə Fətəli Axundzadənin “Hacı Qara” tamaşasına baxırdılar. Tamaşanın müzakirəsində İsa Həbibov da çıxış edib, aktyorların ifası haqqında fikirlərini bildirmiş, aktyor Əyyub Haqverdiyevin şəxsi həyatı ilə oynadığı rol arasında yaxınlıq olmasını onun səhnədəki məharətində mühüm əhəmiyyətə malik olduğunu nəzərə çatdırmışdı. Abbas Zamanov XX əsrin əvvəllərində, sovet hakimiyyətinə qədərki dövrdə aktyorların sanki öz həyatlarını səhnədə göstərirlərmiş kimi oynadıqlarına dair əlavə məlumatları tələbələrə çatdırmış, İsa Həbibovun çıxışını təqdir etmişdi.

Həyatının sonrakı bütün dövrlərində də İsa Həbibbəyli teatrla əlaqəsini daim davam

etdirmişdir. O, Naxçıvan Dövlət Universitetində müəllim işlədiyi illərdə Naxçıvan teatrında oynanılan bir neçə tamaşanın elmi məsləhətçisi olmuşdu. Cəlil Məmmədquluzadənin Vəli Babayev tərəfindən hazırlanmış "Çay dəsgahı" tamaşasında, Əliqismət Lalayevin quruluşunda göstərilən "Kişmiş oyunu" tamaşasında onun adı rəsmi şəkildə "elmi məsləhətçi" kimi afişalara yazılmışdı. Azərpaşa Nemətov Naxçıvan teatrında oynanılan "Danabaş kəndinin məktəbi" tamaşasının ictimai baxışına İsa Həbibbəylini çağırıb, ilk tamaşadan əvvəl əsərin səhnə təcəssümünü onunla müzakirə etmişdi. Eynilə Mərahim Fərzəlibəyli də Naxçıvan teatrında tamaşaya qoyulmuş Nəriman Həsənzadənin "Atabəylər" tamaşasının məşqlərinə İsa Həbibbəyli ilə birlikdə baxıb, məsləhətləşmişdilər. Tamaşadakı Nizami Gəncəvi ilə Əcəmi Naxçıvaninin görüşü səhnələrində Nəriman Həsənzadə onların fikirlərini nəzərə alıb, müəyyən dəyişikliklər etmişdi.

Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsində işlədiyi 1996-2013-cü illərdə də İsa Həbibbəyli rəhbərlik etdiyi ali təhsil ocağında Tələbə Teatr Studiyası yaradaraq, universitet səhnəsində tamaşaların hazırlanıb göstərilməsinə nail olmuşdur. Universitetdə teatr və aktyorluq ixtisası üzrə tələbə qəbulu olmadığı üçün tələbə teatrı müxtəlif fakültələrin həvəskar tələbələrindən təşkil olunmuşdu. Gülxar Əhmədovanın rəhbərlik etdiyi bu Tələbə Teatrı müstəqil və professional teatr səviyyəsinə yüksəlmişdi. İsa Həbibbəyli qeyri-rəsmi şəkildə sanki Tələbə Teatrının rejissorluğunu həyata keçirirdi. O, mütləq bir neçə dəfə məşqlərə baxır, lazımi tapşırıqlar verirdi. Naxçıvan Dövlət Universitetinin Tələbə Teatrı Studiyasında Cəlil Məmmədquluzadənin "Ölülər" və "Anamın kitabı" tragikomediyaları, Esxilin "Zəncirlənmiş Prometey" faciəsi və başqa əsərlər böyük uğurla nümayiş etdirilmişdir. Tələbə teatrı Bakıda, Türkiyənin Qars, Ərzurum universitetlərində, İqdır şəhərində qastrol tamaşaları ilə çıxış etmişdir.

Bundan başqa, universitetin rektoru İsa Həbibbəylinin təşəbbüsü ilə yaradılan Tələbə Opera Studiyası universitetin Fortepiano kafedrasının müdiri, Əməkdar incəsənət xadimi Səidə Məmmədovanın rəhbərliyi ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin məşhur "Arşın mal alan" operettasını tamaşaya qoymuşdu. "Arşın mal alan" Naxçıvan Dövlət Universitetində dəfələrlə göstərilməklə bərabər, Bakıda Rus Dram Teatrının səhnəsində, Rusiyanın Novorossiysk şəhərində Azərbaycan diasporu qarşısında, Gürcüstanın Cavaxetiya Universitetində mesxeti türkləri üçün, Türkiyənin Qars, Ərdahan və İqdır şəhərlərində də uğurla nümayiş etdirilmişdir. İsa Həbibbəyli universitetdə və Naxçıvandan kənarlarda göstərilən tamaşaların hamısında iştirak edir, tamaşalardan əvvəl çıxış edərək oynanılan əsərin və səhnəyə çıxarılan tamaşanın mahiyyətini auditoriyaya çatdırırdı. Teatr İsa Həbibbəyli üçün maarifçilik baxımından universiteti inkişaf etdirmək üçün əsl xitabət kürsüsü idi. O, teatr tamaşaları vasitəsi ilə universitetin ümumi mədəni səviyyəsini inkişaf etdirməyə çalışırdı.

Naxçıvan Dövlət Universitetində İsa Həbibbəylinin təşəbbüsü ilə yaradılmış və uğurla fəaliyyət göstərən Şən və Hazırcavablar Klubu da teatryönlü fəaliyyətin bir istiqaməti idi.

Bizim görkəmli ədəbiyyatşünas alim kimi tanıdığımız İsa Həbibbəylidə həqiqi bir teatrşünaslıq istedadı da vardır. Təsadüfi deyildir ki, onun bir çox tamaşalar haqqında yazdığı resenziyalar teatr dairələrində maraqla qarşılanmışdır.

Həyatının Bakı mərhələsində də İsa Həbibbəyli ardıcıl olaraq paytaxt teatrlarında tamaşalara baxır. Onu daha çox Azərbaycan Dövlət Akademik Teatrında görmək olar. Naxçıvanda tamaşa qoyduğu vaxtdan tanıdığı Azər Paşa Nemətovun bu teatrın direktoru olması da bu ünsiyyətdə müəyyən rol oynamışdır. Akademik İsa Həbibbəyli Akademik teatrda tamaşaya qoyulmuş Cəlil Məmmədquluzadənin "Ölülər" (rejissor Azərpaşa Nemətov) və "Dəli yığıncağı" (rejissor Bəhram Osmanov) tamaşalarının elmi məsləhətçisi olub. Akademik teatrda 2016-cı ildə "Ölülər" tamaşasının 100 illik yubileyini təşkil edib və tamaşaqabağı məruzə ilə çıxış edib. Cəfər Cabbarlının "Almaz", Xalq yazıçısı Elçinin "Cəhənnəm sakinləri" tamaşalarına Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kollektivi ilə birlikdə baxıb. Bu günlərdə, 17 may 2024-cü ildə Akademiyanın prezidentinin təşəbbüsü ilə Mehriban Ələkbərzadənin quruluşunda Akademik Dram

Teatrında Çingiz Aytmatovun "Əsrə bərabər gün" tamaşasına baxış təşkil olundu. İsa müəllim tamaşadan əvvəl Çingiz Aytmatovun həyatı və yaradıcılığı haqqında məruzə ilə çıxış etdi. Tamaşaya baxışda AMEA-nın bütün elmi-tədqiqat institutlarının əməkdaşları iştirak edirdilər. Bu, Akademiyanın həyatında yeni və əhəmiyyətli hadisədir və ümumi mədəni inkişafa xidmət edir.

Akademik İsa Həbibbəyli bir sıra teatr tamaşaları haqqında resenziyalar yazıb çap etdirib. Onun "Azərbaycan" qəzetinin 12 iyul 2012-ci il tarixli sayında çıxan "Koroğlu" operası Naxçıvan səhnəsində" məqaləsi yaddaqalan professional teatr resenziyasıdır.

İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə və Naxçıvan teatrı" məqaləsi Naxçıvan teatrının tarixi haqqında ciddi elmi araşdırmadır.

Xalq yazıçısı Elçinin Naxçıvan teatrında oynanılan dram əsərləri haqqında İsa Həbibbəylinin teatr resenziyaları vardır.

Azərpaşa Nemətov haqqında yazdığı məqalə görkəmli rejissorun mükəmməl portret-oçerkidir.

Deməli, İsa Həbibbəylinin elmi və bədii yaradıcılıq sahəsində olduğu kimi, teatr sahəsində də tələbəlik illərindən başlanan yol davam edir.

Teatrla əlaqə İsa Həbibbəylinin dünyagörüşünün inkişafında mühüm rol oynamışdır.

Teatr İsa Həbibbəylinin maraq dairəsinin və fəaliyyətinin mühüm bir istiqamətidir. Onun dünyagörüşünün formalaşmasında teatr da mühüm rol oynayıb və ikinci ali məktəb qədər əhəmiyyətli olub.

**Nəticə / *Conclusion***

Dəfələrlə müşahidə etmişəm ki, İsa Həbibbəyli teatr tamaşalarına ailə üzvləri və xüsusən nəvələri ilə birlikdə gəlir. Bu o deməkdir ki, o öz ailə üzvlərini, daha çox isə nəslin davamçıları olan nəvələrini də teatr vasitəsilə real həyata və gələcəyə hazırlayır...

**Ədəbiyyat / *References***

1. İmanlı A. Şeirdən başlanan möhtəşəm yol. – Bakı: Elm və təhsil, 2024, 157 s.

## Иса Габиббейли и Нахчыванский театр

**Акиф Иманли**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: akifimanli48@gmail.com

**Резюме.** В статье рассматриваются связи академика Исы Габиббейли с Нахчыванским театром как в студенческие годы, так и в годы его деятельности в Нахчыване. Большой интерес Исы Габиббейли к театру начался еще в школьные годы. Во время учебы в Огланкалинской школе Шарурского района в 1965-1966 годах он сыграл роль Видади в драме С. Вургуна «Вагиф», которая была подготовлена и успешно поставлена школьным драмкружком. Иса Габиббейли создал в своем селе драмкружок, привлек в него школьников и поставил «Вагифа», причем на этот раз сам сыграл роль Вагифа. Затем он поставил произведения У.Гаджибейли «Не та, так эта», «Аршин мал алан», исполнив роли Сарвара, Гасан-бека и Сулейман-бека. Иса Габиббейли написал комедию «Гулумов», в ней он исполнил роли Гулумова, Айдына Гасанова и Зулумова, Наиль Аббасов сыграл роль дяди

Гейдара. Работа была поставлена в сельском клубе. Интерес к театру у Исы Габиббейли сохранился и в студенческие годы, и в годы работы в Нахчыване, и он поддерживал постоянную связь с театром. Его часто приглашали на публичные обсуждения спектаклей.
Бесконечная страсть к театру проявилась в создании им Студенческой театральной студии в 1996-2013 годах, когда он был ректором Нахчыванского государственного университета. Студенческий театр достиг уровня независимого и профессионального театра, и гастролировал с постановками в университетах Баку, Карса и Эрзурума в Турции, а также в городе Игдыр. Иса Габиббейли также основал в НГУ «Клуб Веселых и Находчивых».
**Ключевые слова:** Иса Габиббейли, Нахчыван, Баку, Вагиф, Гаджибейли, Гулумов, Айдын, Наиль, театр, студия